*Hər bir millətin doğma ana dili xalqın özünəməxsusluğunu, tarixi keçmişini və mədəniyyətini, zəngin söz xəzinəsini, inanc və ənənələrini, əxlaqi davranışları və dünyagörüşünü özündə daşıyan, əsrlərdən-əsrlərə çatdıran əvəzsiz milli sərvətdir. Bu baxımdan, Türk dünyasının fenomeni, əbədiyaşar Heydər Əliyev dilimizin, milli-mənəvi dəyərlərimizin qorunub inkişaf etdirilməsi üçün əlindən gələni əsirgəməmişdir.*

# HƏR BİR XALQ ÖZ DİLİ İLƏ TANINIR...

Tarixə nəzər salsaq, Azərbaycan dili müxtəlif dövrlərdə rəsmi dövlət dili kimi elan edilmiş, lakin bu statusu uzun sürməmişdir. Yalnız ulu öndər Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra, müdrükluyü və uzaqgörənliyi ilə milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını qoymuşdur. Fenomen şəxsiyyətin titanik səyi, fəal və ardıcıl dil siyasəti xalqın milli özünüdərk və azadlıq ruhunu yüksəltmişdir.

70-ci illərdə Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində və Azərbaycan Yazıçılar İttifaqının qurultayında, özündən əvvəlki çoxillik stereotipləri sındıraraq doğma ana dilində çıxışı tədbir iştirakçıların mənəvi dəstək vermiş, ruh yüksəkliyi yaratmış, bu məsələnin müsbət həlli üçün geniş üfüqlər açmışdır. Totalitar rejimin hökm sürdüyü, qatı rus millətçiliyi və şovinizminin baş alıb getdiyi keçmiş sovetlər birliyində bu cür ciddi məsələni qoymaq və ona nail olmaq heç də asan iş deyildi. Ulu öndər çəkinmədən öz sözünü demişdir. Ümummilli lider 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra dilimizin qorunması üçün səylərini daha da artıraraq bildirmişdir ki, milli-mənəvi dəyərlərimizi və dilimizi qorumaq, zənginləşdirmək, inkişaf etdirilmək, cəmiyyətdə tutduğu mövqeyindən, vəzifəsindən asılı olmayaraq hər kəsin vətəndaşlıq borcudur. Çünki hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" fikirləri ilə Vətənini, xalqını ana dilini nə dərəcədə sevdiyini ifadə edən ümummilli lider həmişə dilimizə qayğı ilə yanaşmış, onun saflığı, yad təsirlərdən qorunması üçün çalışmışdır.

1995-ci il oktyabrın 31-də Konstitusiyanın dövlət dili haqqında maddəsi ilə bağlı keçirilən müzakirələr nəticəsində, Azərbaycan dilinin qanuni haqqının özünə qaytarılması bunun bariz nümunəsidir. Həmin il noyabrın 12-də qəbul olunan Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dili kimi təsbit (21-ci maddə) olundu. Azərbaycan Prezidentinin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərman, "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" 4 iyul 2001-ci il tarixli Sərəncam, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli Sərəncam və nəhayət, 2003-cü il yanvarın 2-də qüvvəyə minmiş "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. Bu sənədlərin hazırlanmasında, ərsəyə gətirilməsində görkəmli şəxsiyyət Heydər Əliyevin yüksək intellekti, zəngin dövlətçilik təcrübəsi, güclü məntiqi, ana dilinə misilsiz məhəbbəti mühüm rol oynamışdır. Bəli, Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi yolunda möhtərəm Heydər Əliyevin başladığı milli mücadilənin tarixi bir qərinədən çox davam etmişdir.

Milli tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş 1969-2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, beynəlxalq aləmin çox mötəbər məclislərinin kürsülərindən eşidilməsi ulu öndərimizin ana dilimizin inkişafına, onun sosial-siyasi və mədəni həyatda layiqli yer tutmasına göstərdiyi diqqət və qayğının, son dərəcə dəqiq, düşünülmüş və uzaqgörən dil siyasətinin nəticəsində mümkün olmuşdur. Latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci il 1 avqust ayında bütünlükdə təmin edildiyi və yeni əlifbadan istifadənin özünü doğrultduğu nəzərə alınaraq, hər il 1 avqust tarixi ölkədə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.

Ulu öndər Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" haqqında fərmanına uyğun olaraq Azərbaycanda ilk olaraq Mingəçevir şəhərində möhtəşəm "Ana Dili" Abidəsi ucaldılmışdır. Şəhərin mərkəzində Səməd Vurğun küçəsindəki geniş meydanda ucaldılış abidənin təntənəli açılışında paytaxtdan, respublikanın bir çox şəhər və rayonlarından gəlmiş dövlət rəsmiləri, qonaqlar və şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Açılış mərasimində Mingəçevir Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, Milli Məclisin deputatları mərhum Zəlimxan Yaqub, Nizami Cəfərov, Aydın Mirzəzadə, Memarlar İttifaqının birinci vitse-prezidenti Hafiz Əmirxanov çıxış edərək dövlət müstəqilliyimizin və milli-mənəvi varlığımızın əsas atributlarından olan Azərbaycan dilinin tarixi, özünəməxsus gözəlliyi, ölkəmizdə tamhüquqlu dövlət dili statusu alması barədə əhatəli danışmışlar. Natiqlər, ulu öndər Heydər Əliyevin ana dilimizin qorunub saxlanılması, inkişafı və tətbiqinin genişləndirilməsi, dünya azərbaycanlılarının birliyi və həmrəyliyinin möhkəmləndirilməsi sahəsindəki xidmətlərini, bu istiqamətdə həyata keçirilən tədbirlərin tarixi-siyasi əhəmiyyətini xüsusi vurğulamışlar. İlk dəfə Mingəçevirdə inşa edilmiş, memarlıq və ideya baxımından bütövlüyü ilə seçilən abidənin, uşaq və gənclərin mənəvi-əxlaqi tərbiyəsində də mühüm rol oynayacağı xüsusi qeyd etmişlər.

Cənab İlham Əliyevin müasir dövrün tələblərini və reallıqlarını nəzərə alaraq 2013-cü ildə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı təsdiqləməsi milli-mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından mühüm tarixi hadisə kimi qeyd edildi. Məqsəd Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi, dilçilik üzrə araşdırmaların daha da genişləndirilməsi idi. Bu gün, Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin dünya dilləri sırasında özünəməxsus yeri və imzası var. Prezident İlham Əliyevin sözləri ilə desək, "Ana dilimiz öz imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik quruluşunun sabitliyi ilə səciyyələnir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir. Tarixin müxtəlif dönəmlərində ölkəmizin ayrı-ayrı imperiyalar tərkibində olmasına baxmayaraq, Azərbaycan dili öz varlığını və özündüyünü qoruyub saxlamış, tarixin amansız və sərt sınaqlarından üzüağ, şərəflə çıxmış, zaman-zaman cilalanaraq saflaşmışdır. Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".

**Zabit XƏLİLOV,**
**"Respublika".**

Respublika.- 2025.- 1 avqust (№ 158).- S.8.